*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 110-115* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.110*

***Ədəbiyyat nəzəriyyəsi***

# Vaqif poeziyasında duaların performativ funksiyası

**Rüstəm Kamal**
Filologiya elmləri doktoru
Odlar Yurdu Universiteti. Azərbaycan.
E-mail: kamalrustam@mail.ru

**Annotasiya.** Müəllifin performativlik nəzəriyyəsinə müraciət etməsi Vaqifin lirik janrlarını daha dərindən dərk etməyə imkan yaradır. Məqalədə dualar performativ başlanğıc baxımdan təhlil edilmişdir. Ümimiyyətlə, böyük şairin şeirlərində dualar üstünlük təşkil edir. Şeirlərdə duanın performativ başlanğıcı, təlqinlərdə olduğu kimi, onu əmələ yaxınlaşdırır (İ.Tyupa). Dua şairin təfəkkürünü və üslubunu, bütövlükdə, mətnin arxetipik janr strukturunu müəyyən edir.
Tədqiqatın aktuallığı duaların poetik funksionallığı ilə bağlıdır.
**Açar sözlər:** sakral, performativ, dua, janr, lirika, Molla Pənah Vaqif

**Məqalə tarixçəsi:** göndərilib – 05.05.2023; qəbul edilib – 15.05.2023

# The Performative Function of Prayers in the Poetry of Vagif

**Rustam Kamal**
Doctor of Philological Sciences
Odlar Yurdu University. Azerbaijan.
E-mail: kamalrustam@mail.ru

**Abstract.** Appeal of the author of the article to the theory of performativity makes it possible to deepen the understanding of Vagif's lyrical genres. The article analyzes prayers from the point of view of the implementation of the performative principle in them. In the structure of the poems of the great poet, prayers occupy the dominant place at the beginning part. The performative beginning of prayer in poems brings it closer to action, as it happens in magic (I.Tyupa). Prayers determine the type and style of the poet's thinking, the archetypal genre structure of the text as a whole. The relevance of the study is due to the poetic functionality of prayers.
**Keywords:** sacred, performative, prayer, genre, lyrics, Molla Panah Vagif

**Article history:** received − 05.05.2023; accepted − 15.05.2023

### Giriş / *Introduction*

Dua dini inanc diskursunun vacib janrıdır. "Dua" sözü ərəb dilində "hər hansı yaxşı və yaxud pis əmələ görə Allah-taalanı imdada (köməyə) çağırmaq deməkdir ki, bunun da cəminə dəvət (çağırışlar), çağırana isə "dai" deyilir ki, "nida edən" sözü də bu mənadadır" [2, s.169]. Quranda və hədislərdə duaların, dua ibadətinin əhəmiyyəti xüsusi qabardılır. Bakara surəsində deyilir: "Mənə dua edənin diləyini qəbul edərəm. O halda onlar da mənim dəvətimə gəlsinlər və mənə inansınlar ki, doğruya yetişmiş, səadətə qovuşmuş olsunlar" (Bakara, 186-cı ayət). Dua müsəlmanın hər işinin və əməlinin başında gəlir, bütün yaradıcılıq və fəaliyyət sferalarını əhatə edir. Gündəlik məişət etiketlərində və epistolyar aktlarda dua janrı yer alır.

### Əsas hissə / *Main Part*

Dua ruhun nurlanmasıdır. Bu dünyanın faniliyindən qurtulub Tanrıya sığınmaq, Tanrıya qovuşmaq cəhdidir. "Dua dil, əməl və qəlb ilə gerçəkləşir. Ariflərin duası qəlbin Haqqa dönüşü, Haqqın dərgahında hazır olmasıdır. Tanrı Quranda "Məni yad edin ki, Mən də sizi yad edim demişdir" [3, s.69].

Vaqif şeirində duaların və ya dua formullarının intensivliyi müəllifin təfəkkür tipi ilə sıx bağlıdır. Ona görə başqa nitq janrları kimi, duaların da nitq stixiyası kimi formalaşmasında şairin dini təhsilinin və fəaliyyət təcrübəsinin təsiri danılmazdır. Dua Vaqifin (və lirik qəhrəmanın!) xeyir sözüdür.

*Eşitdim küsübsən, tərpəndi dərdim,*
*Yalvarıb könlünü almaq istərdim,*
*Qulluğuna namə yazıb göndərdim,*
*Bizdən sənə çox-çox dualar olsun.* [8, s.65]

Dua janrı Vaqif şeirində kommunikativ situasiyann əsas elementlərindən biridir, praqmatik-funksional işarəlidir. Dualar nitq davranışının xüsusi forması olub, adresant üçün arzuolunan pozitiv situasiyanı modelləşdirir.

Vaqif şeirlərində "dua" sözünün sinonimik sırasında "səna" sözü də işlənmişdir. "Səna" ərəb mənşəli leksik vahiddir, "şükr etmək, allaha yalvarmaq, Allahı tərif, mədh etməkdir" [6, s.277]. Xalqımızın folklor – dialekt düşüncəsində bu sözə rast gəlirik. Bir rəvayətdə deyilir ki, Allah, peyğəmbəri ağır sınaqlara çəkir, oğlanlarını öldürür, sağlamlığını əlindən alır, bədəninə qurd salır. Amma bu əzablara, işgəncələrə və itkilərə baxmayaraq, peyğəmbər hər dəfə Allaha şükür edir. Peyğəmbərin ağlasığmaz şükranlığını görən şeytan onu məzəmmət edir: "Ay Allah səən öyü yıxsın, o Allah səə nə gün ağlııb ki, aa be qədər şükür – səna eleersən?" [5, s.94-95]

*Duaçınam, salma məni nəzərdən,*
*Əskik olmayasan sənadan, Pəri!* [8, s.33]

Yaxud

*Ömrünə çox dua – səna demişəm,*
*Suçumu, dərdimi sana demişəm,*
*Mən canımı qurban sana demişəm,*
*Ol zaman ki, oldu qalü bəla, qız.* [8, s.96]

Divan ədəbiyyatında qəzəl forması məzmununa və ideyasına görə mediativ janr olsa da, Vaqif ondan ritual – funksional nitq janrı kimi istifadə edir. Ritual-performativ sözün "müdaxiləsi" nəticəsində "qəzəl poetik strukturca demokratikləşir" [1, s.79], Səhabəddin bəyin şərəfinə deyilmiş dualar qəzələ panegirik (mədhiyyə) tonallığı gətirmişdir.

*Şəhabəddin bəyin iqbalü bəxti müstədam olsun,*
*Ani hifz eyləyən daim xudayi-layənəm olsun.*

*Gülüstani-səfadə qönçeyi-ümmidi açılsın,*
*Vücudi dəhri-bağında həmişə xoşxüram olsun.*

*Cahanın ümdə eyşü işrəti çün vəsli – dilbərdir,*
*Əlində bir səmənrüxsar zülfü sübhü şam olsun.*

*İgidlərdə gərəkdir yaxşı ad aləmdə söylənsin,*
*Həyatı baqidir ol kimsənin ki, nikinam olsun.*

*Bizə səndən hədiyyə, nuri-çeşmim, bir məhəbbətdir,*
*Sənə Vaqifdən amma çox dua ilə salam olsun!*
[8, s.107]

Duanın bir arxaik variantı da salam söyləməkdir (Bu gün də Azərbaycanda insanlar ünsiyyət zamanı "atana (evə) salam söylə" deyimini işlədirlər). Məsələn, "Salam söylə" dua formulu Molla Vəli Vidadinin qəzəlində ritorik – ritmik strukturu müəyyənləşdirir. "Salam söylə" formulunun performativliyi və rədif kimi təkrarlanması qəzəl mətninə bir ovsun havası da verir. Arxaik ovsunlar fövqəltəbii qüvvələrə, mifik varlıqlara ünvanlanan apelyativ nitq janrıdır. Vidadi də salamlarının yara çatdırılması üçün səhər mehinə müraciət edir.

*Ey badi-səba, məndən ol yarə salam eylə,*
*Dərdü ələmim bildir dildarə, salam eylə.*

*Görsən üzün ol mahın, bas bağrına gərdun tək,*
*Dön başına yalvarə-yalvarə salam eylə.*

*Key bağı behiştim, mən bir Adəmdim guya,*
*Düşdüm səri-kuyindən avarə, salam eylə.*

*Dərdi qəmi-hicranın hər ləhzə hücumundan*
*Axır ki, cigər oldu sədparə, salam eylə.*

*Gör xəstə Vidadinin dağı-cigərini söylə*
*Ol lalə rüxə, çeşmi-bimarə, salam eylə.*
[9, s.52]

Vaqifin dilində "şükr", "şükrillah", "Allaha şükür" dua formulları – deyimləri nitq etiketləri kimi çıxış edir. Etiket lirik personajın davranış funksionallığını şərtləndirir.

*Mən Vaqifəm, şükür, yetdim murada,*
*Dəxi arzum yoxdur fani dünyada.* [8, s.58]

*Şükr təqdirinə kərəmin kanı,*
*Sanasan bir aydı, təzə çıxıbdır.* [8, s.79]

*Şükr olsun allaha – Vaqifi sana*
*Qapında qülami – kəmtər eylədi.* [8, s.28]

*İndən belə ölsəm, arzu çəkmənəm,*
*Şükr allaha, arzumana yetişdim.* [8, s.44]

Vaqif yar qapısını (küyini) dua-ibadət məkanı kimi şərəfləndirir və oraya dönə bildiyi üçün Allaha şükranlıq edir.

*Mən Vaqifəm, kuyin mənə Kəbədir,*
*Şükrilillah, müsəllaya dönmüşəm.* [8, s.44]

"Müsəlla" hərfi mənada "dua etmək üçün yer" deməkdir və Hz. Məhəmmədin (s.ə.s) Mədinədə dini təcrübə dövrünə aiddir. Peyğəmbər gündəlik duaları öz evində, amma xüsusi duaları (məsələn, bayram duaları) isə şəhərdən kənarda edirdi. Həmin yer bir qayda olaraq çevrəyə alınmış, hasarlanmış, memarlıq tikililəri olmayan açıq məkan idi. Tarixi qaynaqlardan məlumdur ki, Müsəlla ərazisində edamlar da yerinə yetirilirdi, qadınların saflaşması məqsədilə onların bura gəlməsi məsləhət görülürdü [14, s.154].

Ə.Səfərli "Divan ədəbiyyatı sözlüyündə qeyd edir ki, "müsəlla" sözü "mənaya görə, namaz qılmağa, dua oxumağa aid yer adlanardı. Müsəllada quraqlığa qarşı Allaha dua olunardı" [7, s.306]. Teatrşünas A.Talıbzadə də təxminən belə şərh edir: "Müsəlla hansısa müqəddəs istək, ya da icmanın böyük diləyi adı ilə kollektiv duaların ismarlanması üçün boş, açıq məkandır. Müsəllaya kollektiv həyatının ən tragik, kritik məqamlarında daxil olurlar, eyni zamanda bütün icma ilə birlikdə, xorla Allahdan yardım diləyirlər. Müsəlla icmanın reçitasiya ilə özünəməxsus namazıdır. Başqa sözlə, islamda xorla yerinə yetirilən kollektiv dua aktı müsəlla adlanır" [13, s.91-92].

Yuxarıda qeyd etdiyimiz kimi, duanın intonasiyası və tonallığı "struktur başlanğıc fenomenidir" [11, s.116] bütövlükdə bədii obrazın tonallığını və üslubunu müəyyənləşdirir.

*Şükr allaha, deyil adamyeyici,*
*Nolur gəlsən bizə, qurban olduğum.* [8, s.51]

Vaqif "Yoxdur" rədifli qoşmasında "çətin güzərandan giley xarakterli tənqidini ironik şəkildə şükranlıq duası ilə tamamlayır [4, s.87].

*Bizim bu dünyada nə malımız var,*
*Nə də evdə sahibcamalımız var,*
*Vaqif, öyünmə ki, kamalımız var,*
*Allaha şükür ki, kamal da yoxdur.* [8, s.82]

Poetik mətnlərin strukturunda istifadə olunan sakral deyimlərdən biri də "Allahü əkbər" duasıdır. "Allahü əkbər" Quranın ən böyük duası olub, lüğəvi mənada "Allah böyükdür" deməkdir. İbadətdə, şəriətdə, xüsusən mediativ (zikretmə) məqamlarda işlənir, "şəriətdə buna təkbir və yaxud "təkbirətül-ehtiram", yəni "Allahı böyük bilməyin və yaxud tutmağın ən hörmətlisi" deməkdir" [2, s.121].

Vaqif şeirinin strukturunda intensiv gerçəkləşən dualar ritual sözün yazıya proeksiyası kimi maraq doğurur. Vaqifin lirik qəhrəmanı inanc sözün performativ gücünə inanır. Hüseynxan Mustaqa göndərdiyi mənzum məktubun sonunda "allahü əkbər" deyib, yenə də tüfənglə bağlı ümidlərinin itmədiyini bildirir.

*Bavər etdim vədəyə, gəldim ki, mən ol həm gələ,*
*Gəlmədi, amma gözüm yollarda qalıbdır hələ,*
*Nalişimdən hər zaman düşdü zəmanə zəlzələ,*
*Derlər, ol bəylərbəyi həm axtarır düşməz ələ,*
*Qəhdə çıxmışdır məgər, allahü əkbər, bir tüfəng?* [8, s.123]

Sakral adlar dua janrının ən mühüm ontoloji məqamıdır. "Sakral adlara və ya sözlərə müraciət magik aktlardır, əslində dualardır" [10, s.42]. Duaların struktur-tematik tərkibi sakral ada müraciətdən və lirik qəhrəmanın istək və arzularından ibarət olur. Sakral ada xitablar (Yarəb, mövla, xuda, Allah, Allahü Əkbər...) isə duaların etiket hissəsini təşkil edir.

*Yarəbbi, bu şəhrə o üzü mah gələydi,*
*Gedəydi bu zülmət. [8, s.146]*
*Cəm etsən əgər yanında xubani-cahanı,*
*Bir zərrəcə sevməm dəxi qeyrini, səvanı,*
*Sən saxla pənahında, xudaya, bu cavanı,*
*Yanında payəndaz edərəm baş ilə canı,*
*Olsaydı bizə bir gecə mehman qaraçarqat.*
[8, s.139]

*Ey Məkkəni, Mədinəni yaradan,*
*Bir fikir çək əhvalına Vaqifin*

*Ol qaşı qibləyə üz sürtmək istər,*
*Mədəd eylə iqbalına Vaqifin.* [8, s.62]

Dualar sakral janrlar olub, kommunikativ hadisənin fövqəl iştirakçılarına, ya da yüksək sosial statuslu şəxslərə ünvanlanır.

*Gecə-gündüz duam budur tarıma,*
*Nola səni sala bir güzarıma.* [8, s.51]

*Allah muradını versin o yarın,*
*Rəqibi kuyindən sursun o yarın.* [8, s.31]

*Bəlalardan səni saxlasın xuda,*
*Sən tək gözəl eldən olmasın cüda,*
*Xəstə Vaqif ölsə, başına fəda,*
*Təki olsun sənin canın sağ, gəlin!* [8, s.53]

*Novcavanlar qoy həmişə var olsun,*
*Amma ki, bizlərdən xəbərdar olsun,*
*Vaqifin duası sənə yar olsun,*
*Səni haqq saxlasın ömrü dövlətdə.* [8, s.19]

Bu nümunələrdə sakral adların (xuda, Haqq, tanrı, Allah) səslənməsi həm də inamın təsdiqi idi.

"Görmədim" müxəmməsində dünyadan, zəmanədən şikayətlənən şairin yenə də son ümidi, imdad-sığınacaq yeri "fövqəladresat" (M.M.Baxtin) – Rəbbidir, yer üzündə haqq-ədalətin bərqərar olması üçün Rəbbinə dua edir:

*Baş ağardı, ruzigarım oldu gün-gündən siyah,*
*Etmədim, səd heyf kim, bir mahi rüxsarə nigah,*
*Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah,*
*Vaqifa, ya rəbbəna, öz lütfunu eylə pənah,*
*Səndən özgə kimsədə lütfü inayət görmədim.*
[8, s.129]

Vaqif şeirlərinin strukturunda diqqətçəkən məqamlardan biri də bədnəzərlə (gözdəymə) bağlı dualardır. Bədnəzərlik ən qədim magik inanclardan hesab edilir, yəni bir insanın gözbaxış vasitəsilə başqasının taleyinə təsiretmə gücünə, canlı varlığa ziyanvericilik imkanına inamı ifadə edir. Mifoloji təsəvvürlərdə göz-ba-

xış "insan və təbiət hadisəsi arasında magik əlaqə yaradan maddi kontakt növü" [6, s.360] kimi səciyyələndirilir. Baxış subyektdən obyektə, yaxud əksinə, obyektən subyektə informasiya kanalıdır. Göz mediativ mahiyyətə malik olur, yəni hansısa bir obyektə neqativ informasiya da ötürə bilir, insana xətər-ziyan yetirmək qabiliyyətinə malikdir.

*Mən xud deyiləm bədnəzər, ey gözləri şəhla,*
*Məndən üzünü yaşırırsan sən elə bica.*
[8, s.144]

Digər şeirlərdə isə lirik qəhrəman gözəlliyinin yaman gözlərdən hifz olunması, gözə gəlməməsi üçün dualar edir:

*Mən sevmişəm ala gözün sürməsin,*
*Bədnəzər kəsibən, ziyan verməsin,*
*Saqın gəzin, laçın gözü görməsin,*
*Qorxuram səfnizi poza, durnalar!* [8, s.69]

Yaxud

*Vaqif bir şeydadır, dolanır bağı,*
*Xəstədir, dərmanı – dilbər dodağı,*
*O alma yanağı, büllur buxağı,*
*Allah, bədnəzərdən salamət eylə!* [8, s.20]

## Nəticə / *Conclusion*

Göründüyü kimi, Vaqifin poetik dili performativ xarakterlidir, hər bir söyləm özündə performativ komponenti ehtiva edir. XX əsr alman filosofu H.-G.Qadamerin təbiri ilə desək, "dil öz mənbəyinə, düşüncənin və hadisənin magik vəhdətinə qayıdır..." [12, s.142] Dua janrı Molla Pənah Vaqifin təfəkkür tipini və üslubunu, bəzən bütövlük mətnin arxetipik strukturunu müəyyənləşdirir.

## Ədəbiyyat / *References*


1. Cəfərov, N. Molla Pənah Vaqif. – Bakı: "Penessans–A" Nəşr evi, 2017.
2. Faseh, R. Seyyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi. – Bakı: Şərq-Qərb, 2007.
3. Göyüşov, N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri (Yığcam ensiklopedik açıqlamalar). – Bakı: "Tural–J" NPM, 2001.
4. Həbibbəyli, İ. Molla Pənah Vaqif. – Bakı: Elm və təhsil, 2021.
5. Kazımoğlu, M. Söz haqqında söz. Məqalələr və müshibələr. Bakı: Elm və təhsil, 2020.
6. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. 2 clddə, II c. – Bakı: Şərq-Qərb, 2005.
7. Səfərli, Ə. Divan ədəbiyyatı sözlüyü. – Bakı, 2014.
8. Vaqif. Əsərləri. – Bakı: Yazıçı, 1988.
9. Vidadi. Əsərləri. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1977.
10. Агамбен, Дж. Что такое повелевать? – Москва: Грюинлрисса, 2013.
11. Бахтин, М.М. Собрание сочинений. В 7 томах, т. 5. – Москва, 1997.
12. Гадамер, Г.Г. Актуальность прекрасного. – Москва, 1991.
13. Талыбзаде, А. Театр и театральность в культуре ислама: поэтика форм проявления театра в средневековых странах Ближнего и Среднего Востока (X-XVI вв.) – Баку: Сабах, 2006.
14. Шукуров, Ш. Искусство средневекового Ирана (Формирование принципа изобразительности) – Москва: Наука, 1989.

# Перформативная функция молитв в поэзии Вагифа

**Рустам Кямал**
Доктор филологических наук
Университет Одлар Юрду. Азербайджан.
E-mail: kamalrustam@mail.ru

**Резюме.** Обращение автора статьи к теории перформативности позволяет углубить понимание лирических жанров Вагифа. В статье анализируются молитвы с точки зрения реализации в них перформативного начала. В структуре стихов великого поэта молитвы занимают доминирующее начало. Перформативное начало молитвы в стихах приближает его к действию, как это происходит в заклинаниях (И.Тюпа). Молитвы определяют тип и стиль мышления поэта, архетипическую жанровую структуру текста в целом.
Актуальность исследования обусловлена функциональностью в поэтической речи молитв.
**Ключевые слова:** сакральный, перформатив, молитва, жанр, лирика, Молла Панах Вагиф